# MİRZƏ İBRAHİMOVUN "SEÇİLMİŞ ƏSƏRLƏRİ"NİN NƏŞRİ

**Nailə Mehrəliyeva**
*Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti*

***Xülasə:*** *Elmi məqalədə vurğulandığı kimi xalq yazıçısı M.İbrahimov Azərbaycan ədəbiyyatı tarixində xüsusi yer tutan ədiblərimizdən biridir. İlk şeiri və hekayəsi 1930-cu ildə çapdan çıxmışdır. Məqalədə M.İbrahimovun "Seçilmiş əsərləri" nin nəşri məsələləri öz əksini tapmışdır.*
***Açar sözlər:*** *Mirzə İbrahimov, seçilmiş əsərlər, ədəbiyyat hekayə, roman, nəşr*

**Giriş:** Ədəbiyyatımızın böyük dayağı Mirzə İbrahimov ədəbi-publisistik, elmi-nəzəri yaradıcılığı, eləcə də ictimai-siyasi fəaliyyəti ilə Azərbaycan ədəbiyyatı tarixində xüsusi yer tutan yazıçılarımızdan biridir. Mirzə İbrahimov XX əsrin 30-cu illərindən başlayaraq ömrünün sonunadək Azərbaycan mədəni və ideoloji-siyasi həyatında silinməz izlər qoymuşdur. Yazıçı ədəbiyyat aləminə gəldiyi ilk gündən etibarən şair, hekayəçi, dramaturq, oçerk və tənqidçi, publisist kimi ədəbi fəaliyyətini inkişaf etdirmişdir. Hələ onun ilk yazılarında-şeirlərində, hekayələrində və romanlarında, o cümlədən oçerklərində günün vacib, aktual mövzularına cavab vermək həvəsi aydın duyulur. Mirzə İbrahimovun yaradıcılığının ilk qələm təcrübəsi şeir olmuşdur. "Qazılan buruq" adlı ilk şeirini 1930-cu ildə "Aprel alovları" məcmuəsində çap etdirir. İlk şeirinin mətbuatda çap olunması onu həmin vaxtdan etibarən ədəbi-bədii yaradıcılıqla məşğul olmağa sövq edir. Bundan sonra dövri mətbuatda digər şeirləri "Mədən səsləri", "Neft", " Dneprostroy", "Son döyüş", "Qırmızı snayper", "Zərbəçi qız", "Şota Rustavelliyə" və s. çap olunur [1, 415].

"Zəhra" adlı ilk hekayəsini 1930-cu ildə qələmə alan yazıçının "İnqilab və Mədəniyyət", "Komunist", "Ədəbiyyat cəbhəsində", "Şərq qadını", "Gənc işçi", " Hücum" jurnal və qəzetlərində dərc etdirdiyi əsərlərində yeni həyat tükənməz bir həvəslə və ilhamla tərənnüm olunurdu.

Ulu öndər Heydər Əliyev "Mirzə İbrahimov təvazökar mehriban həssas bir insandır. Bütün Azərbaycan xalqının sevimlisidir, xalq yazıçısı kimi yüksək ada layiqdir. Eyni zamanda onun yaradıcılığı ölkəmizdə layiqincə qiymətləndirilib.Yazıçının kitabları hər yerdə geniş şöhrət və rəğbət qazanıb" – deyərək onun şəxsiyyətini, yaradıcılığını yüksək qiymətləndirib [6].

1940-1950-ci illərdə M.İbrahimov bədii nəsrlə ciddi məşğul olur. Xüsusilə ilk illərdə (1946-1947) onun yaradıcılığında Cənubi Azərbaycan həyatının təsviri geniş və əhəmiyyətli yer tutur. "Azad", "Tonqal başında", "İztirabın sonu", "İki həyat" hekayələrindən ibarət olan "Cənub hekayələri" silsiləsini yaradır. Sonralar yazıçı, "İran qızı"1935 və "Bir günəşin işıqları"1959 hekayələrini də bu silsiləyə daxil etmişdir. "Cənub hekayələri" yazıçının müharibə illə-

rində Cənubi Azərbaycanda olarkən topladığı zəngin, maraqlı həyati müşahidələrinin məhsuludur. M.İbrahimov bu hekayələri yazdığı dövrdə eyni zamanda həmin mövzuda məşhur "Gələcək gün"adlı ilk iri həcmli nəsr əsərini və ilk romanını da yaradır. "Gələcək gün" romanı ilk dəfə 1948-ci ildə jurnalda işıq üzü görür, 1949-cu ildə isə Ə.Sadiqin redaktorluğu ilə kitab şəklində buraxılmışdır. Kitab 1949-cu ildə 157 səhifə, 1951-ci ildə 753 səhifə, 1956-cı ildə isə 622 səhifə həcmində nəşr olunmuşdur. 1949-cu ildə isə yazıçının 20 səhifədən ibarət olan "Azad" adlı orta yaşlı uşaqlar üçün nəzərdə tutduğu kitabı "Uşaqgəncnəşr"də, O.Həsənovun redaktorluğu ilə çap olunmuşdur.

1950-ci ildə Ə.Sadiqin redaktorluğu ilə 87 səhifədən ibarət olan digər bir kitabı "Azərnəşr"də çap olunmuş, buraya "Salam sənə, Rusiya!", "12 dekabr", "İki həyat" əsərləri daxil edilmişdir.

Mirzə İbrahimovun ədəbi irsinin nəşrinin tipoloji baxımdan inkişafında onun ayrı-ayrı əsərləri, monoqrafiyaları ilə yanaşı "Seçilmiş Əsərləri" də xüsusi rol oynayır. Ədibin külliyyatının "Seçilmiş Əsərlər" şəklində buraxılışı 1954-cü ildən həyata keçirilmişdir. Bu dövr ərzində görkəmli nasir, dramaturq, tərcüməçi və ictimai xadim Mirzə İbrahimovun "Seçilmiş əsərləri" 3 cilddə "Azərbaycan Dövlət Nəşriyyatı" tərəfindən 1954-1956-cı illərdə çapdan buraxılmışdır.

İlk iki və üçüncü cild isə 1956-cı ildə işıq üzü görmüşdür. Hər üç cildin rəssamı V.V.Kuruslov, iki cildin redaktoru Həsən Hüseynov, bədii redaktoru R.Hüseynov, texniki redaktoru M.Balakişiyevdir. Üçüncü cildin redaktoru M.Mirkişiyev, bədii redaktoru M.Aslanov, texniki redaktoru S.Bağırovadır.

Cildlərin hər biri 10000 nüsxədə buraxılmış, kitabın I cildinə "İradə", "Yol ayrıcında", "İşıqlı kənd", "Heykəl", "Qardaşlıq", "Üfüqlər qızaranda", "Etibar", "İki həyat", "Məntiq Həsənoviç", "Çandranın üsyanı", "Azad", "Tonqal başında", "12 dekabr", "İztirabın sonu", "Salam sənə, Rusiya!" adlı hekayələr daxil edilmiş, M.İbrahimov haqqında bioqrafik məlumat verilmişdir.

323 səhifədən ibarət olan ikinci cildə "Həyat", "Madrid", "Məhəbbət" pyesləri və "Azad qız "opera librettosu daxildir.

"Seçilmiş Əsərləri"nin III cildində ədibin məhşur "Gələcək gün" romanı da yer almışdır. M.İbrahimovun roman yaradıcılığını diqqətlə nəzərdən keçirdikdə onun bu janra çox böyük məsuliyyətlə müraciət etdiyini və romanda həmişə ümumxalq əhəmiyyətli problemlər qoyub işıqlandırdığını görmək o qədər də çətin deyil. Onun romanlarının yaranma tarixləri arasında bəzən on ildən çox bir müddət dayanır. Yazıçının "Gələcək gün" romanı 1973-cü ildə də R.Hacıyevanın redaktorluğu ilə "Gənclik" nəşriyyatında yenidən çap edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, yazıçının "Gələcək gün" romanının jurnal variantı ilk dəfə 1948-ci ildə, mükəmməl ikinci variantı isə 1951-ci ildə çap olunub. 1956-cı ildə, yəni aradan səkkiz il keçəndən sonra "Böyük dayaq" romanını yazır. İkinci romanla "Pərvanə" arasında isə on iki illik bir vaxt məsafəsi vardır. "Pərvanə" romanı 1969-cu ildə əvvəlcə "Azərbaycan" jurnalında, sonra ayrıca kitab şəklində Azərbaycan və rus dillərində nəşr edilmişdir. "Böyük dayaq" romanını yazmazdan əvvəl isə yazıçı fəhlə həyatı mövzusunda "Mayak" romanını başlamışdı. Hətta romandan bir-iki parça mətbuatda çıxmışdır.



Mirzə İbrahimov irsinin "Seçilmiş Əsərlər" şəklində buraxılışı 1966-1972-ci illərə təsadüf edir. Yazıçının 4 cilddən ibarət olan "Seçilmiş Əsərləri" nin I cildi – "Böyük dayaq" adı ilə C.Bağırın redaktorluğu ilə 1966-cı ildə "Azərnəşr"də çap edilmişdir. II cild hekayələr və povestlərdən ibarətdir. 455 səhifədən ibarət olan bu cildə "Zəhra", "Mələk", "Qaçaq", "İran qızı", "Qartal qəfəsdə", "Mədinənin ürəyi", "İnsanın ürəyi haqqında", "Mina xanım", "Torpaq mənə nə deyirdi", " Poçtalyon", "Çobanın məsləhəti", " Pələng və insan", "Mehribanın dəftəri", "Birinci dərs", "Göyərçinlərim", "Bağban Rövşən", "Qırmızı qalstuk", "Fəridə və yoldaşları", "Murovdağın ətəyində" , "Güləbətin" povestləri daxildir. 1972-ci ildə 4 cilddən ibarət "Seçilmiş əsərləri" nin, oçerklər, yol xatirələr, ədəbi-tənqidi məqalələrdən ibarət III cildin, povest və hekayələri daxil olan IV cildin redaktoru Zəkəriyyə Qiyasbəyli, rəssamı A.Kazulovdur. [3, 132]

Mirzə ibramovun 1966-1972-ci illərdə çap olunmus "Seçilmiş Əsərləri"nin trajı 20000 nüsxə olmuşdur.

"Seçilmiş əsərləri"n birinci cildinə Y. Qarayev yazıçının yaradıcılığının geniş təhlilini verən "Mirzə İbrahimov" adlı müqəddimə yazmışdır Bu Müqəddimədə görkəmli nasir, dramaturq, tərcüməçi M .İbrahimoovun yaradıcılığı və ədəbi naliyyətləri əsaslı şəkildə şərh edilmişdir. Burada nəşrin quruluşuna da yer ayrılmışdır.

Mirzə İbrahimovun 10 cilddən ibarət "Seçilmiş Əsərləri" nin birinci cildi 1978-ci ildə, 512 səhifə həcmində "Yazıçı " nəşriyyatında işıq üzü görmüşdür. Qırx il ərzində yazılmış bu hekayələrdə (1929-1969) yeni insan, onun yüksək mənəvi-əxlaqi keyfiyyətləri, köhnə əxlaq normalarına qarşı mübarizəsi əks olunmuşdur. Həmin kitaba; "Zəhra", "Mələk", "Qaçaq", "Üfüqlər qızaranda", "Yol ayrıcında", "Məntiq Həsənoviç", "Etibar", "İki həyat", "İşıqlı kənd", "İradə", "Heykəl", "Qardaşlıq", "Qartal qəfəsdə", "Mədinənin ürəyi", "İnsan ürəyi haqqında", "Torpaq mənə nə deyirdi", "Poçtalyon", "Düz çıxmadı", "Duz-çörək", "Metamarfoza", "Qəbul otağında" və s daxil edilmişdir. [5, 3]

Z.Qiyasbəylinin redaktorluğu ilə nəşr olunan on cildliyin ikinci cildində toplanmış hekayə və povestlər həm məzmununa, həm də formasına görə müxtəlifdir. Onların bir qismi uşaq və gənclərimizin həyatını, mənəvi aləmini, xarakterinin fərqliliklərini əks etdirir. Böyük bir hissəsində isə yazıçının yaradıcılığı üçün səciyyəvi olan mövzular öz bədii ifadəsini tapmışdır.

On cildliyin üçüncü cildi "Gələcək gün" adlanır. 1979-cu ildə 590 səhifə həcmində nəşr olunan bu cild də Z.Qiyasbəylinin redaktorluğu ilə "Yazıçı" nəşriyyatında işıq üzü görmüşdür. [5, 7]

On cildliyin dördüncü cildinə yazıçının "Böyük dayaq" romanı, 5-ci cildə isə müxtəlif illərdə yazdığı və böyük səhnə müvəffəqiyyəti qazanmış pyeslərindən "Həyat" (1935), "Madrid" (1937), "Məhəbbət" (1941) dramları və "Kəndçi qızı" (1962) lirik komediyası daxil edilmişdir. [4, 23]

On cildliyin altıncı cildi pyeslər, kinossenari, opera librettosu və kinonovelladan ibarətdir. Altıncı cild 1981-ci ildə S.Hüseynovanın redaktorluğu ilə,

oçerk və məqalələrdən ibarət yeddinci cild 1982-ci ildə "Yazıçı" nəşriyyatında çapdan buraxılmışdır. Bu cildə yazıçının 1935-1961-ci illərdə yazdığı oçerklər, məqalələr və yol qeydləri, xatirələri daxil edilmişdir. Bu əsərlərin məzmununu ölkəmizdə gedən nəhəng yaradıcılıq-quruculuq işləri, adlı-sanlı adamlarımızın ömür yolu, elmin, ədəbiyyatın nailiyyətləri, dünya xalqlarının sülh, əmin-amanlıq uğrundakı mübarizəsi təşkil edir. Görkəmli nasir və ictimai xadim kimi tanınan Mirzə İbrahimovun əsərlərinin səkkizinci cildində 1963-1980-ci illərdə yazdığı məqalələri, oçerk və yol qeydləri yer almışdır.

Xalq yazıçısı, akademik Mirzə İbrahimovun əsərlərinin doqquzuncu cildinə Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığına həsr olunmuş monoqrafiyası, eləcə də Azərbaycan, rus və başqa xalqların ədəbiyyatının klassikləri, aşıq poeziyası, Cənubi Azərbaycan ədəbiyyatı haqqında tədqiqat xarakterli məqalələri daxildir. Ədibin əsərlərinin sonuncu-onuncu cildi məqalələr və elmi tədqiqat əsərlərini əhatə edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən xalq yazıçısı Mirzə İbrahimovun "Seçilmiş əsərləri" yenidən nəşr olunub ölkə kitabxanalarına hədiyyə edilmişdir. Beləliklə, Mirzə İbrahimovun "Seçilmiş Əsərləri"nin təkrar nəşri 2 cilddən ibarət olmaqla 2005-ci ildə "Şərq-Qərb" nəşriyyatında işıq üzü görmüşdür. Kitabın birinci cildi Mirzə İbrahimovun dörd cildlik "Seçilmiş Əsərləri" nin, və on cilddən ibarət əsərlərinin "Yazıçı" nəşriyyatında 1978-ci ildə buraxılmış kitabının birinci və ikinci cildlərinin əsasında təkrar çapa hazırlanmışdır. Kitabı tərtib edən və ön sözün müəllifi Vaqif Yusiflidir.

Yazıçı, dramaturq , tərcüməçi, ədəbiyyatşünas Mir Calal yazırdı: "Onun qələmi həmişə cilalı, parlaq, kəsərli, heç vaxt qınına salınmayan silahdır. Kənd olsun, şəhər olsun, müharibə, sülh olsun, ailə, ya ictimaiyyət olsun, kütləvi səhnə ya qəlb aləmi olsun, həyatımızın elə sahəsi yoxdur ki, oraya Mirzənin qələmi nüfuz etməsin. Ədibin səsi, sözü eşidilməsin. O təbiyətən fəal, özünə tələbkar şəxsiyyətdir".

Xalq yazıçısı Mirzə İbrahimov Azərbaycanın ədəbiyyatının beşiyi başında dayanan, onun zənginləşməsi yolunda istedadını, zəhmət və əməyini əsirgəməyən, bütün varlığını, duyğu və düşüncəsini, var gücünü insan dühasının nailiyyətlərinə əsaslanaraq bədii təfəkkürün hüdudlarını genişləndirmək, sənətdə yeni yollar açmaq kimi nəcib və mürəkkəb vəzifənin şərəflə yerinə yetirilməsi işinə verən görkəmli sənətkarlarımızdandır.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı:**

1. Müasir Azərbaycan ədəbiyyatı. Bakı: Bakı universiteti nəşriyyatı, 2007. – 504 s.
2. Azərbaycan tərcümə ensiklopediyası Bakı: Azərbaycan Dillər Universiteti, – 2018. – 584 s.
3. Əliyev F. Mirzə İbrahimov və xalq yaradıcılığı Bakı: Elm və Təhsil, 2013. – 160 s.
4. Əhmədov T. Mirzə İbrahimov Bakı: Nurlan. – 2001. – 184 s.



5. İbrahimov M. Seçilmiş əsərləri, 2 cilddə, c.1. Bakı: Şərq-Qərb, 2005. – 432 s.
6. Qaraoğlu.F Tarixdə iz buraxanlar: M.İbrahimov, Bakı xəbərləri, – 2017

**N.Mehraliyeva**

**Publication of "selected works" of Mirza Ibrahimov**

*As emphasized in the scientific article, the people's writer M.Ibrahimov is one of our writers who has a special place in the history of Azerbaijani literature.His first poem and story were published in 1930. The article reflects the issues of publishing Ibrahimov's "selected works".*

***Keywords:*** *Mirza Ibragimov, selected essays, literature, stories, novels, editions.*

**Н.Мехралиева**

**Издание «избранных произведений» Мирзы Ибрагимова**

*Как отмечалось в научной статье народный писатель М.Ибрагимов занимает особое место в истории Азербайджанской литературы. Первые рассказы и стихи были опубликованы в 1930 году. В статье нашли свое отражение проблемы связанные с публикацией «Избранные сочинение» Мирзы Ибрагимова.*

***Ключевые слова:*** *Мирза Ибрагимов, избранные сочинение, литература, рассказы, роман, издание.*

***Rəyçi:*** *p.ü.f.d., dos.* ***K.İ.Aslan***